***Rauf İlyasoğlu***

## ***Xocalı faciəsi***

Xocalı faciə! İlahi görən?
Yer üzündə belə gəzmək olarmı?
Süngüyə sancılan körpəni görən,
Yaşamaq olarmı, dözmək olarmı?

İsməti tapdanan qızlar, gəlinlər,
Dərisi soyulan kişilər, ərlər,
Nər kimi döyüşüb ölən əsirlər,
Qəddini dik tutub gəzmək olarmı?

Balanı yandırdı ana yanında,
İt qanı axırdı hayem qanında.
Əsir nə gündədir yarım canında,
Qansız alçaqları əzmək olarmı?

Xocalı dayandı məğrur yaşadı,
Onlar ürəklidi, xalqla qoşadı.
İgid qanları da aşıb-coşardı,
Şeytan hiyləsinə dözmək olarmı?

Dəhşətli o gecə düşdü yadıma,
Xocalı gətirdi pənah Ağdama.
Qoçaq Alı yetdi girov dadına,
Erməni gözündən, Allah, qan dama,
Əsl soyqırımı edib Ağdama.

***İlyasoğlu R. Xocalı faciəsi : şeir // Xatirəyə dönmüş anlar. – Bakı : Çənlibel, 2008. – S.75-76.***